CARIFY

**01.10.2024-ci il**

**NƏQLİYYAT VASİTƏSİNİN DİSTANS ALQI-SATQISI BARƏDƏ**

**MÜQAVİLƏ CFR002171**

**Bakı şəhəri**

Bu müqaviləni (bundan sonra "Müqavilə" adlandırılacaq və 5 (beş) səhifədən ibarətdir), bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qeydə alınmış və Nizamnamə əsasında fəaliyyət göstərən "CARİFY" Məhdud Məsuliyyətli Cəmiyyəti, Direktor Süleymanov Turan Azər oğlunun şəxsində (bundan sonra "Vasitəçi" adlandırılacaq) və digər tərəfindən oooo oooooo oooo oğlu/qızı (Ş/v:Nı: **AA0000000**) (bundan sonra "Alıcı" adlandırılacaq) ("Vasitəçi" və "Alıcı" ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq) aşağıdakı şərtlərlə bağladılar:

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Müqaviləyə əsasən "Vasitəçi" "Alıcı"-ya Cənubi Koreya, Amerika, Çin, Dubay, Almaniya və s. qeydiyyata alınmış www.carify.az və yaxud digər bu qəbildən olan internet resurslarından "Alıcı"nın seçdiyi (bundan sonra Avtomobil adlanacaq) nəqliyyat vasitəsini bu ölkədə Alıcının adına alır, Alıcının istəyinə uyğun olaraq Gürcüstana və ya Azərbaycana nəql edərək orada ona təhvil verir, "Alıcı" isə həmin avtomobili qəbul edir.

| | |
|---|---|
| Avtomobil markası, modeli: | Kia Sorento |
| Eyniləşdirmə nömrəsi (VIN): | KNAPH81ADKA521577 |
| Buraxılış ili: | 2018/12 |
| Rəngi: | Ağ |
| Yürüş: | 36.047 km |
| Mühərrikin həcmi: | 1,995 cc |

1.2. Bu müqavilənin predmeti olan nəqliyyat vasitəsi(ləri) ("Alıcı"nın sifariş verdiyi) istifadə olunmuş avtomobillərdir.

1.3. Vasitəçi aşağıdakı məlumatları;

- avtomobilin satıldığı ölkədə ümumi vəziyyəti barədə internet resursunda yerləşdirilmiş və ya avtomobilin əvvəlki sahibindən əldə olunan məlumatları,
- avtomobilin yerində ətraflı video-şəkil görüntülərini

alıcıya elektron poçt, Whatsapp, Telegram və ya digər sosial və ya bulud şəbəkəsi ilə əvvəlcədən təqdim etməklə həmin avtomobili distant (bu müqavilə bağlanarkən Alıcının bilavasitə avtomobili texniki baxışdan keçirməyi istisna edən) üsulla Alıcının adına alınır.

1.4. Avtomobilin Azərbaycana çatdırılması (Avtomobil alındığı ölkədə daşınma-nəql olunma xərcləri və s.) və gömrükdə rəsmiləşdirilməsi xərcləri (gömrük bəyənnaməsi üzrə xərclər, rüsumlar, ƏDV, konteynerdən düşürülmə xərcləri və s.) Alıcı tərəfindən ödənilir.

1.5. Avtomobilin daşınma xərcində dəyişiklik olarsa, bu fərq nəzərə alınır. Fərq dedikdə;

- Koreyadan avtomobilin təhvil-təslim məntəqəsinə çatdırılması zamanı yaranan daşınma xərcindəki artım nəzərdə tutulur. Bu məbləğ (fərq) Alıcı tərəfindən kompensasiya edilir,
- Əvvəlki punktda göstərilən xidmətlər üzrə qiymətlərdə azalma olduğu halda həmin fərq Alıcıya qaytarılır.

1.6. 1.3 bəndində göstərilən xidmətlərə görə, Alıcı **340 AZN (vergilər daxil)** məbləğində xidmət haqqını Vasitəçiyə ödəyir. Bu xidmət haqqı müqavilə imzalandıqdan sonra heç bir halda geri qaytarılmır.

## 2. TƏRƏFLƏRİN ÖHDƏLİKLƏRİ

2.1 Vasitəçinin üzərinə düşən öhdəliklər:

2.1.1. Bu müqavilə ilə nəzərdə tutulan şərtlərlə avtomobili Alıcının adına Çindən almaq və ona üç ay müddətində təhvil vermək. Vasitəçidən asılı olmayan geçikdirmə müddəti üç ay müddəti ilə şərtləndirilə bilməz.

2.1.2. Avtomobil Alıcıya təhvil verilərkən avtomobilin Alıcının adına Azərbaycanda rəsmiləşdirilməsi üçün tələb olunan sənədləri təqdim etmək. Təqdim olunacaq sənədlərin siyahısı avtomobilin təhvil-təslim aktında qeyd edilməlidir.

2.1.3. Alıcının almaq istədiyi avtomobil Satıcı tərəfindən satılarsa, Alıcı tərəfindən ilkin ödəniş kimi etdiyi **340 AZN** saxlanılmaqla yeni avtomobil axtarıb tapmaq.

2.1.4 Avtomobil Vasitəçi tərəfindən Alıcıya təhvil verilən zaman avmobildə olan **200 AZN** dəyərində zədələrə görə vasitəçi öhdəlik daşımır. Bura ikinci əl avtomobil üzərində olan cızıqların cilalanması, avtomobilin təmizlənməsi, yanacaq xərcləri və s. daxildir.

2.2. Alıcının üzərinə düşən öhdəlik:

2.2.1. Avtomobili seçdiyi halda avtomobilə Çində baxış keçirmək üçün ilkin olaraq **340 AZN**, bəyənərək almaq istədikdə isə ilkin olaraq **0 AZN** Vasitəçiyə təqdim edir. Avtomobilin tam dəyərini, onun nəql olunma xərci də nəzərə alınmaqla Vasitəçinin verdiyi bank hesabına köçürmək.

2.2.2 İçərisində avtomobil olan konteyner Bakıya gətirildikdə, avtomobilin konteynerdən düşürülmə xərcini ödəmək. **130-150 AZN** eyni zamanda gömrük xərclərini ödəmək.

2.2.3 Bu müqavilə ilə avtomobilin təhvili nəzərdə tutulmuş yerdə avtomobili təhvil-təslim aktı ilə qəbul etmək.

## 3. AVTOMOBİLİN DƏYƏRİ VƏ ÖDƏNİŞ QAYDASI

3.1. Avtomobil **20,950 (iyirmi min) ABŞ dolları** təşkil edir. Bu məbləğə aşağıdakılar daxildir;

- Texniki vəziyyəti, qüsurları və istehlak keyfiyyəti nəzərə alınmaqla qiyməti – **18,950 (iyirmi min) ABŞ dolları**
- Cənubi Koreya, Amerika, Çin, Dubay, Almaniya və s. avtomobilin təhvil-təslim məntəqəsinə çatdırılması zamanı yaranan daşınma xərci – **1,800 (iki min iki yüz) ABŞ dolları**

Göstərilən xidmətlərə görə vasitəçiyə ödənilən xidmət haqqı- **340 (üç yüz qırx) AZN (vergilər daxil)**

3.2. Avtomobilin dəyəri Vasitəçinin təqdim etdiyi invoys əsasında Çinə, avtomobilin satışını həyata keçirən şirkətin bank hesabına Alıcı tərəfindən köçürülür.

## 4. AVTOMOBİLİN TƏHVİL-TƏSLİM EDİLMƏSİ

4.1. Avtomobilin tərəflər arasında təhvil-təslimi aktla həyata keçirilir.

4.2. Vasitəçi Alıcıya mobil telefon və ya elektron poçtla məlumat verməklə avtomobili Alıcıya təhvil verməyə hazır olduğunu bildirir.

4.3. Avtomobil təhvil alınarkən Alıcı avtomobilə baxış keçirməklə avtomobilin texniki və

xarici vəziyyətinin ona verilmiş məlumatla (1.3 bəndindəki) uyğunluğunu yoxlayır.

4.4. Alıcı avtomobil üzərində mülkiyyət hüququnu avtomobilin Cənubi Koreya, Amerika, Çin, Dubay, Almaniya və s. onun adına alınmasından sonra əldə edir. Cənubi Koreya, Amerika, Çin, Dubay, Almaniya və s.-dən Alıcıya göndərildikdən sonra avtomobilin nəql olunması zamanı mexaniki zədə alması riski Alıcıya keçir. Avtomobilin təhvil-təslim aktı imzalanmasından sonra Vasitəçi bu müqavilə ilə üzərinə düşmüş öhdəliyi icra etmiş olur.

## 5. AVTOMOBİLİN SATIŞ ŞƏRTLƏRİ

5.1. Avtomobil Alıcıya təhvil verildikdən sonra Vasitəçi və Satıcı avtomobilin keyfiyyətinə və texniki nasazlığına görə (sürətlər qutusu və mühərrik istisna olmaqla) heç bir təminat vermirlər. Alıcı qəbul edir ki, istifadə olunmuş avtomobili alır, avtomobildə yaranmış nasazlıq və ya defekt avtomobilin təbii aşınması və istismarı nəticəsində baş verə bilər və bu səbəbdən Vasitəçi və Satıcıya qarşı avtomobilin keyfiyyətinə görə hər-hansı bir tələb irəli sürə bilməz. Belə olan halda Alıcıya təhvil verilmiş avtomobilə dair Azərbaycan Respublikası Mülki Məcəlləsinin **582-ci maddəsi** (malın keyfiyyəti üçün qarantiya) tədbiq edilmir.

5.2. Bu müqavilə bağlananadək Vasitəçi Alıcıya avtomobilin ümumi və texniki vəziyyəti barədə ətraflı məlumat verməlidir.

5.3. Alıcı təsdiqləyir ki, ona bu müqavilə imzalananadək Vasitəçi tərəfindən avtomobilin kompleks baxış keçirilməsi və diaqnostik vəziyyətini özündə əks etdirən məlumatlar (istifadə

olunmuş avtomobilin servisdə baxılmasını təsdiq edən sənədlə-yoxlama qeydləri ilə) təqdim edilmişdir.

5.4. Vasitəçi avtomobildə aşkarlaya bilmədiyi gizli qüsurlara görə cavabdeh deyil. Alıcı belə qüsurların avtomobildə ola biləcəyi ilə razılaşır, bu qüsurlar aşkar olduqda isə onları olduğu kimi qəbul edir və öz hesabına aradan qaldırmağa razılaşır.

5.5. Alıcı Avtomobilin markasına uyğun olaraq Cənubi Koreya, Amerika, Çin, Dubay, Almaniya və s. rəsmi servisdə ətraflı olaraq texniki baxışının keçirilməsini tələb etdikdə (istədikdə), həmin servis xidmətinin dəyərini əvvəlcədən Vasitəçinin göstərdiyi bank hesabına göndərir. Servis xidmətinin ilkin dəyəri **400 ABŞ dolları** (servis mərkəzindən asılı olaraq dəyişə bilər) miqdarında qiymətləndirilir və Alıcı tərəfindən ödənilir. Bu xidmət haqqı avtomobilin sifarişindən imtina edildikdə geri qaytarılmır.

## 6. FORS-MAJOR

6.1. Müqavilə üzrə öhdəliklərin icrasının fors-major hadisələr nəticəsində qeyri-mümkün olduğu hallarla qarşılaşan Tərəf (yanğın, daşqın, digər təbii fəlakətlər, blokada, tətillər, hərbi əməliyyatlar, mülki qarşıdurmalar və embarqo) digər Tərəfi 15 (on beş) gün ərzində qeyd edilən halların baş verməsi və ya sona çatması və həmin halların Müqavilə üzrə öhdəliklərin icrasına təsiri barədə xəbərdar etməlidir.

6.2. Bu öhdəlikləri yerinə yetirməyən Tərəf digər Tərəfin xəbərdar olunmaması nəticəsində dəyən zərərə görə məsuliyyət daşıyır.

6.3. Fors-major halların 1 (bir) aydan artıq müddətdə davam etdiyi təqdirdə Tərəflərdən hər biri digər tərəfi yazılı qaydada xəbərdar etməklə Müqaviləyə xitam vermək hüququna malikdir və bu halda Tərəflər hər hansı bir kompensasiya ödəmir.

## 7. DİGƏR ŞƏRTLƏR

7.1. Bu müqavilə imzalandığı andan qüvvəyə minir və tərəflərin qarşılıqlı öhdəliklərinin tam şəkildə yerinə yetirilməsindən sonra öz qüvvəsini itirir.

7.2. Tərəflərdən heç biri öz hüquq və öhdəliklərini digər Tərəfin yazılı razılığı olmadan üçüncü şəxslərə verə bilməzlər.

7.3. Müqaviləyə hər hansı dəyişiklik və əlavələr hər iki Tərəfin səlahiyyətli nümayəndəsi tərəfindən imzalandıqdan sonra hüquqi qüvvəyə malikdir və Müqavilənin ayrılmaz tərkib hissəsidir.

7.4. Tərəflər bu Müqavilə ilə bağlı təşkil edən məlumatları digər tərəfin yazılı razılığı olmadan üçüncü şəxslərə verməməyi öhdələrinə götürürlər və belə məlumatları gizli saxlayırlar.

7.5. Bu müqavilə bərabər qanuni qüvvəyə malik olmaqla iki nüsxədə tərtib edilmişdir. Müqavilənin bir nüsxəsi "Vasitəçi"də və bir nüsxəsi isə "Alıcı"da saxlanılır.

7.6. Avtomobilin yürüşündə fərq olmaması – yəni Cənubi Koreya, Amerika, Çin, Dubay, Almaniya və s. sürüləndən sonrakı yürüşlə müştərinin Bakıda yoxlanması nəticəsində

müəyyən edilən yürüş arasında fərq olduğu təqdirdə Carify (vasitəçi olaraq) hansı növ zəmanətlər verir?

Bütün məsulliyəti Carify Şirkəti öz üzərinə götürür.

7.7. Müştərinin Bakıda yoxlanışı nəticəsində avtomobilin vuruğa və ya zədəyə görə rəng və ya hansısa detalının dəyişdirilməsi ve ya yenilənməsi müəyyən edilərsə, Carify hansı növ zəmanətlər verir?

Bütün məsulliyəti Carify Şirkəti öz üzərinə götürür.

7.8. Müştərinin Bakıda yoxlanışı nəticəsində maşının texniki vəziyyətində və ya çalışmasında hansısa nasazlıq müəyyən edilərsə, Carify hansı növ zəmanətlər verir?

Bütün məsulliyəti Carify Şirkəti öz üzərinə götürür. (mühərrik və sürətlər qutusu təhvil verildikdən 48 saat ərzində problem aşkarlanarsa, bununla yanaşı avtomobilin sürətlər qutusu və mühərrikindən başqa heç bir mexaniki detalına zəmanət verilmir)

## 8. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANLARI VƏ REKVİZİTLƏRİ

| | |
|---|---|
| **Vasitəçi:**<br>**“CARİFY” MMC**<br>8 Noyabr prospekti 15, Park Azure Biznes Mərkəzi, 1-ci mərtəbə<br>TEL: +994 777 665 665<br>VÖEN-i 2008095141<br>Hesab nömrəsi: AZ09PAHA40060AZNHC0100572175<br>Müxbir bank: "PAŞA Bank" ASC<br>SWIFT: PAHAAZ22<br>Bank kodu: 505141<br>Valyuta: AZN<br>Bankın VÖEN-i: 1700767721<br>**Direktor**<br>**Turan Süleymanov** ____________________<br>(imza)<br>M.Y | **Alıcı:**<br>A.S.A Oooooo ooooo oooo oğlu/qızı<br>Ş.v №-si: **AA000000**<br><br>____________________<br>(imza) |